AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı* |
| Qəbul edildiyi tarix | *17.03.2014* |
| Qeydiyyat nömrəsi | *05/2* |
| Adı | *"Banklarda hesabların açılması, aparılması və bağlanması Qaydaları"nda dəyişikliklər edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *05.04.2014* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *090.060.080* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *23201403170052* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *04.04.2014* |

Mərkəzi Bankın İdarə Heyətinin 2012-ci il 3 dekabr tarixli 29/2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Banklarda hesabların açılması, aparılması və bağlanması Qaydaları"nınAzərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə və "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 17 dekabr tarixli 852-IVQD nömrəli Qanununa uyğunlaşdırılmasını təmin etmək məqsədi ilə Mərkəzi Bankın İdarə Heyəti

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci və 44.4-cü maddələrinə əsasən

***Q Ə R A R A  A L I R:***

1. "Banklarda hesabların açılması, aparılması və bağlanması Qaydaları"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur);

2. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Sədr** **Elman Rüstəmov**

**"Təsdiq edilmişdir"**
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 05/2
"17" mart 2014-cü il

**"Banklarda hesabların açılması, aparılması və bağlanması Qaydaları"nda dəyişikliklər**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2012-ci il 3 dekabr tarixli 29/2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Banklarda hesabların açılması, aparılması və bağlanması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.6-1-ci bənd əlavə edilsin:

"1.6-1. Rezidentlərin və qeyri-rezidentlərin bank hesabları üzrə qrant verilməsi və ya alınması ilə bağlı əməliyyatlar yalnız qrant verilməsi və ya alınması haqqında hər birmüqavilənin (qərarın) qeydə alınmasını təsdiq edən sənəd təqdim olunduqda aparılır.";

2. 3.1.6-cı yarımbəndin "Qeyd" hissəsi üzrə:

2.1. 2-ci abzasda "pasport" sözündən sonra ", yaxud Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün verilən icazə vəsiqəsi" sözləri əlavə edilsin;

2.2. 3-cü abzasda "vəsiqəsi" sözündən sonra ", yaxud Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün vətəndaşlığı olmayan şəxslərə verilən icazə vəsiqəsi" sözləri əlavə edilsin;

2.3. 4-cü abzas ləğv edilsin.